UOT 371

**İradə Böyükağa qızı Əmirəliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*

# MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN PEDAQOJİ GÖRÜŞLƏRİ

***Ирада Боюкага гызы Амиралиева***
*доктор философии по педагогике*
*ведущий научный сотрудник Института Образования*
*Азербайджанской Республики*

## ПЕДАГОГИЧЕСКИЕ ВЗГЛЯДЫ МИРЗА ФАТАЛИ АХУНДЗАДЕ

***Irada Boyukagha Amiraliyeva***
*doctor of philosophy in pedagogy*
*leading scientific worker at the*
*Institute of Education of the Republic of Azerbaijan*

## MIRZA FATALI AKHUNDZADE'S PEDAGOGICAL VIEWS

**Xülasə.** Məqalə Mirzə Fətəli Axundzadənin pedaqoji görüşlərinə həsr edilmişdir. Müəllif ədibin təhsilə, məktəbə, təlim və tərbiyə məsələlərinə dair fikirlərini diqqət mərkəzinə gətirir. Mirzə Fətəlinin tərbiyənin məqsədinə, müəllim kadrları hazırlığına, təlimin ana dilində aparılmasının vacibliyinə dair fikirlərini verir. Eyni zamanda qızların oğlanlarla birgə təhsilinə, yeni məktəblərin – xalq məktəblərinin yaradılmasının, dünyəvi təhsilin təşkilinin zəruriliyinə aid qənaətlərini yada salır. Bundan başqa, böyüyən nəslin mənəvi tərbiyəsi, o cümlədən vətənpərvərlik tərbiyəsi haqqında M.F. Axundzadənın fikirləri üzərində dayanılır, göstərilir ki, maarifpərvər Axundzadə fiziki cəzanı yolverilməz hesab edirdi.

***Açar sözlər:*** *pedaqoji görüşlər, təlimin ana dilində aparılması, xalq məktəbləri, oğlanlarla qızların birgə təhsili, vətənpərvərlik tərbiyəsi, fiziki cəzanın yolverilməz olması*

**Резюме.** Статья посвящена педагогическим взглядам Мирзы Фатали Ахундзаде. Автор акцентирует внимание на размышлениях писателя об образовании, школе, обучении и воспитании. Излагется мысль о важности взглядов Мирзы Фатали на цели воспитания, подготовку учителей, необходимость преподавания на родном языке. В то же время упоминаются мысли писателя о необходимости совместного обучения девочек и мальчиков, создание новых народных школ, организации светского образования. Кроме того, подчеркиваются взгляды М.Ф. Ахундзаде на нравственное и патриотическое воспитание подрастающего поколения, а также убеждение просветителя о недопустимости физическихнаказаний.

***Ключевые слова:*** *педагогические взгляды, обучение на родном языке, народные школы, совместное обучение мальчиков и девочек, патриотическое воспитание, недопустимость физических наказаний*

**Summary.** The article is devoted to the pedagogical views of Mirza Fatali Akhundzade. The author focuses on the writer's reflections on education, schooling, training and upbringing. The article expresses the idea of the importance of Mirza Fatali's views on the goals of education, teacher training, the need for teaching in the native language. The writer's thoughts about the need for co-education of girls and boys, the creation of new public schools, and the organization of secular education are mentioned. In addition, the views of M.F. Akhundzade on the moral and patriotic upbringing of the youngsters, as well as the educator's conviction about unacceptability of physical punishment are alsounderlined.

***Key words:*** *pedagogical views, teaching in the native language, public schools, co-education of boys and girls, patriotic upbringing, unacceptablity of physical punishment*

Mirzə Fətəli Məhəmmədtağı oğlu Axundzadə (1812-1878) məşhur yazıçı, dramaturq, filosof, ictimai xadim olmaqla yanaşı, görkəmli maarifpərvər idi. O, Azərbaycan xalqının böyük oğlu idi. Mirzə Fətəli Azərbaycan dramaturgiyasının da əsasın qoymuşdu.

Respublika Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarına əsasən, Mirzə Fətəli oğlu Axundzadə Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflər siyahısına daxil olunmuşdur (1).

Mirzə Fətəli "Aldanmış Kəvakib" (Hekayəti-Yusif şah) povestinin, Puşkinin ölümünə "Şərq poeması" kimi məşhur əsərin, "Kəmalüddövlə məktubları" adlı fəlsəfi traktının, "Hekayəti Molla İbrahim Xəlil Kimyagər", "Hekayəti Müsyö Jordan Həkimi-Nəbatat və Dərviş Məstəli Şah Cadükunu Məşhur", "Sərgüzəşti-vəzirixani-Lənkəran", "Helatəti Xırsi-Quldurbasan", "Sərgüzəşti Mərdi-Xəsis" ("Hacı Qara"), "Mürafiə vəkillərinin hekayəti" kimi pyeslərini yazmışdır. Onun əsərlərinin motivləri əsasında respublikamızda "Hacı Qara" (1929 və 2002), "Dərviş Parisi partladır" (1976) tammetrajlı filmlər çəkilmiş; "Aldanmış ulduzlar" operası (1977) bəstələnmiş; "Mürafiə vəkillərinin hekayəti" (2011) film-tamaşası meydana gəlmişdir.

Bütün bunlar çox gözəl. Məqsədimiz həmin əsərlərin üzərində dayanmaq deyil, məqalənin adından da göründüyü kimi, dahi şəxsiyyətin pedaqoji görüşlərinin bəzi məqamlarını yada salmaqdır.

Mirzə Fətəli xalqımızı savadlı, geniş dünyagörüşlü, iti ağıllı, dünya xalqları arasında özünün intellektual səviyyəsi ilə yüksəkdə duran mədəni bir xalq kimi görmək istəyir, insanları mövhumata uymamağa səsləyirdi. Odur ki, o, öz yaradıcılığında təhsil, məktəb, müəllim, təlim-tərbiyə məsələlərinə xüsusi önəm verirdi. Mirzə Fətəli bu qənaətdə idi ki, yeni nəslin təşəkkül tapıb formalaşmasında təhsilə yiyələnmə, təlimlə əhatə olunma və tərbiyələndirmə son dərəcə vacibdir.

M.F. Axundzadənin yaradıcılığı ilə tanışlıqdan belə nəticə hasil olur ki, o, tərbiyənin məqsədini belə təsəvvür edir: "mövhumatdan uzaq, elmi biliklərlə silahlanmış, şüurlu, materialist dünyagörüşünə malik vətənpərvər yetişdirmək".

XIX əsr üçün Azərbaycan mühitindən ötrü tərbiyənin məqsədinin bu şəkildə müəyyənləşdirilməsi təbii idi. O zamanlar mövhumat insanların əl-qolunu bağlayırdı, savadsızlıq baş alıb gedirdi. Odur ki, Mirzə Fətəli birinci yerə "mövhumatdan uzaq" şəxslərin yetişdirilməsini qoymuşdur. Hazırda Azərbaycan xalqı özünün bütün keyfiyyətlərinə, intellektinə, savadına, dünyagörüşünə, yaratdığı möcüzələrə görə dünyada tanınır. Azərbaycan xalqı dünya mədəniyyətinə dahilər bəxş etmişdir. XXI əsr Vətən müharibəsində - İkinci Qarabağ savaşında cəmi 44 gün ərzində müasir hərbi texnika ilə silahlanmış Azərbaycan ordusu Ermənisdan ordusunu darmadağın, daha doğrusu məhv edərək, işğal altında olan torpaqlarımızı erməni faşist işğalçılarından azad etdi və hərb tarixinə öz adını qızıl hərflərlə yazdı.

Mirzə Fətəli o dövrün sxolastik məktəblərini qətiyyətlə pisləyir, bu tipli təhsil ocaqlarının xalqın mənafeyinə uyğun gəlmədiyini göstərirdi.

M.F. Axunzadənin maarifçilik fəaliyyətində önəmli yerlərdən birini tutan məsələ onun ümumtəhsil ideyasını, xalq məktəbləri, dünyəvi məktəblər məsələsini gündəmə gətirməsidir. Yeni məktəblərdən danışarkən göstərirdi ki, onlar dinin təsirinə məruz qalmamalı, uşaqlar bu məktəblərdə elmi biliklərə yiyələnməlidirlər.

Xalq məktəblərinin hazırkı məktəblərdən son dərəcə fərqli olacağını deyən Mirzə Fətəli onların mühüm vəzifələrinə də münasibətini bildirirdi. Bu barədə Həsən bəy Zərdabiyə ünvanladığı məktubdan məlumat almaq mümkündür. Həmin məktubda yazırdı: "Bizə de görək, elmi harada öyrənək və kimdən öyrənək də hansı dillə öyrənək?"

Öz məktubunda o, xalq məktəbinə məxsus üç məsələnin üzərində dayanırdı. 1) "*harada öyrənək*?" dedikdə, bildirirdi ki, *axı məktəblər azdır*. 2) "*kimdən öyrənək?*" sualını verərkən, şagirdlərə dərs deyəcək *müəllimlərin çatışmadığını* diqqət mərkəzinə gətirirdi.

Azərbaycan xalqının böyük oğlu müəllim hazırlığı sahəsində bütün imkanlarından istifadə etmiş, sonda onun səyləri nəticəsiz qalmamışdır. Qoru müəllimlər seminariyası nəzdində tatar (Azərbaycan) şöbəsi açılmışdır.

3) Həsən bəy Zərdabiyə məktubunda diqqət mərkəzinə gətirdiyi növbəti məsələ - təlimin "*hansı dildə*?" həyata keçirilməsi idi.

Məlum olduğuna görə, həmin dövrdə dərslər tədris müəssisələrində ərəb-fars dillərində

təşkil olunurdu. Mirzə Fətəli təlimin ana dilində – Azərbaycan dilində təşkilinin tərəfdarı idi.

Mirzə Fətəli Axundzadənin pedaqoji görüşlərində başlıca yer tutan məsələlərdən biri də həm oğlanların və həm də qızların təhsilə cəlb edilməsi ideyası idi. O, şəhər və kəndlərdə 9 yaşından 15 yaşınadək hər iki cinsdən olan uşaqların məktəbdə təhsillə əhatə olunmasını vacib bilirdi.

Ərəb əlifbasının yeni əlifba ilə əvəz olunması da M.F. Axundzadənin ideyası idi. Ərəb əlifbası yazı və oxuda çoxlu problemlər yaradırdı. Odur ki, Mirzə Fətəli deyirdi: "500 il belə keçsə də, o, yenə dəyişilməlidir, mən onu indi dəyişməyi qərara aldım".

Mirzə Fətəli böyüməkdə olan nəslin əxlaqının saflaşdırılması, mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsini vacib sayırdı. Onun mənəvi tərbiyəyə dair qənaətlərində dostluq və yoldaşlıq, ədalət, vicdanlılıq, humanizm, əməksevərlik, xalqlar dostluğu, sədaqət, insanpərvərlik tərbiyəsini diqqət mərkəzində saxlayırdı.

Eyni zamanda uşaqların doğma yurda, Vətən torpağına, ölkəyə məhəbbət ruhunda tərbiyə olunmasına fikir verməyi tövsiyə edirdi. Bu xüsusda deyirdi: "Patriot o adama deyilir ki, vətənpərvərlik və xalqpərvərlik uğrunda malından, canından keçməyi əsirgəməz, öz vətəninin və xalqının mənafeyi və azadlığı uğrunda çalışar və hər cür əzab və əziyyətə qatlaşar" (3, s. 16).

M.F. Axundzadə fiziki cəzanı yolverilməz hesab edirdi. Bu xüsusda "Kəmalüddövlə məktubları" əsərində yazırdı: ""Uşaqları tərbiyə edərkən onlara çubuq və sillə vurmaq uşaqların əxlaqını pozur, təbiətini alçaldır, fitri cövhərini boğur, onların qorxaq və yalançı olmasına səbəb olur" (3, s. 38).

Mirzə Fətəli abır-həya, ismət-iffət, namus, qeyrət və s. bu kimi məsələləri də son dərəcə gərəkli və vacib hesab edərək, məsləhət görürdü ki, həm kişilər, həm də qadınlar əsl azərbaycanlı kimi özlərini aparsınlar, nəslin adını, şərəfini qorusunlar, həm şəxsi, həm də milli ləyaqət və şərəfə yiyələnsinlər, həm ailəsinin, həm də Vətəninin qeyrətini çəksinlər. Böyük mütəfəkkir yazırdı: "Namus, qeyrət, ağıl, elm və habelə insan təbiətində mövcud olan başqa nəcib qüvvələr elə bir xüsusiyyətdir ki, onlar insanı yaxşı işi pis işdən, savabı günahdan ayırmağı, xeyir işdən həzz almağa, pis işdən əzab çəkməyə qabil edir... İnsanın təbiətinə elm cövhəri ilə nə qədər artıq cila verilərsə, insan həm elmin qüvvəsinə, həm də təbiətinin köməyilə pis əməllərdən bir o qədər sakınar" (3, s. 60).

**Nəticə**. M.F. Axundzadənin arzuları həyata keçmişdir. Ölkəmizdə qızlarla oğlanlar neçə on illiklərdir ki, təhsilə cəlb olunmuşlar, birlikdə ana dilində, müasir məktəblərdə təhsil alırlar. Onların təlim-tərbiyəsi ilə ali təhsilli müəllimlər məşğul olurlar. Ölkəmizdə latın əlifbası tətbiq olunur.

**Problemin aktuallığı.** Mirzə Fətəli Axundzadənin pedaqoji görüşlərində yeni cəhətlərin aşkarlanaraq təqdim olunması aktuallıq kimi qəbul oluna bilər.

**Problemin yeniliyi.** Azərbaycan xalqının böyük oğlu Mirzə Fətəli Axundzadənin pedaqoji görüşləri diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat**

1. Əsərləri dövlət varidatı elan edilən müəlliflər siyahısına daxil edilən müəlliflərin və dövlət varidatı elan edilən filmlərin Siyahısı"nın təqdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı" (azərb.). nk.gov.az.2019-05-11.

2. M.F. Axunov. Əsərləri. 3-c2 cild. Bakı: Azərnəşr, 1968, s. 407-408.

3. M.F. Axunov. Kəmalüddövlə məktubları. Bakı: Gənclik, 1969.

**E-mail:** amiraliyeva_i@mail.ru

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**

**Redaksiyaya daxil olub**: 15.03.2020